OLAYLAR 10-16 dekabr 2021 № 126 (4882)
Cəmiyyət

## Borçalıdaymış

Nə yaxşı tanıdım, nə yaman gördüm,
Yaxşı da, yaman da Borçalıdaymış.
Tapılan dərmanım, azalan dərdim,
Loğman da, dərman da Borçalıdaymış.

Bir gizli soraqla dünyanı gəzdim
Azardan ağrıdım, əzabdan bezdim.
Ümidlə yaşadım, gümanla dözdüm,



Aman da, güman da Borçalıdaymış.

Nə yayı toxdadım, nə qışı gördüm,
Axşam da, sabah da yağışı gördüm,
Bu vaxta yetişdim, bu yaşı gördüm.
Dövran da, zaman da Borçalıdaymış.

Qaralar içində ağ tapammadım,
Bağçalar içində bağ tapammadım.
Gəzməyə, görməyə dağ tapammadım,
Yaylaq da, aran da Borçalıdaymış.

Düşübdü ocağa, oda Kamandar.
Bu közdü, bu kösöv, bu da Kamandar.
Sən dəmə bulaq da, su da, Kamandar,
Çisək də, duman da Borçalıdaymış.

## Çatdırarmış

Dünya hər vaxt nemətini,
Xana, bəyə çatdırarmış,
Yetimin bir istəyini,
Döyə-döyə çatdırarmış.

Uzun yoldu, dərin dərə,
Nə dərman var, nə də çarə.
Can verəni canı yerə,
Ruhu göyə çatdırarmış.

Nə çəkdirdi Kamandara,
Bəxt küsgün, qəlbi yara.
Yol adamı haralara,
Qismət nəyə çatdırarmış.

Bitib, tükənməyir arzunun sonu,
Hələ çox istəyi, çox diləyi var.
Qapını açanlar tanıyar onu,
Geniş süfrəsi var, bol çörəyi var.

Ötən illərini məktəbdə qoyub,
Ümid var, inam var hər bir sözündə.
Bunu uşaqlar da anlayıb, duyub,
Görür hamısını bala gözündə.

Yerişi, duruşu hələ yerində,
Qayğılar olsa da ağır yük kimi,
Elin xeyrində, elin şərində,
Sayılıb seçilir bir böyük kimi.

Həyata sevgisi sönməyib qəti,
Həyatda ad alır yorulmayanlar.
Evə, ailəyə sonsuz diqqəti,
Ömür-gün dostuna sədaqəti var.

## Qurban müəllim

Bir insan yaşayır Borçalımızda,
Bir kəndin, bir elin ağsaqqalıdır.
Evin bəzəyidir oğul da, qız da,
Onun da evində bunlar varıdır.

Böyüdüb, yaşadıb, təhsil veribdi,
Hərəsi bəlli bir yaşdadır indi.



Həm sadə, həm sakit ömür sürübdü,
Yeri yuxarıdadı, başdadı indi.

Örnəyi götürüb ulularından,
Əməli düz olub, niyyəti təmiz.
Həyatı zəhmətlə yaşadığından,
Hörməti böyükdür, xətri də əziz.

Kövrəkdi ürəyi, incədi qəlbi,
Ya sevinc, ya kədər, gözləri dolar.
Elə ki, kimdənsə bir xəbər gəldi,
Tələsər, hamıdan qabaqda olar.

Həyata sevgisi sönməyib qəti,
Həyatda ad alır yorulmayanlar.
Evə, ailəyə sonsuz diqqəti,
Ömür-gün dostuna sədaqəti var.

İbrətdi həyatı, vurğun olmuşam,
Söyləsin sirrini öyrənim, bilim.
Gəlib Abdullaya, gəlib bir axşam,
Deyim ki: xoş gördük, Qurban müəllim!

## Ağrılarımı

Nə yaxın anlayır, nə uzaq bilir,
Gizlədib bükürəm ağrılarımı.
Gündüzlər səngiyir, axşamlar gəlir,
Gecələr çəkirəm ağrılarımı.

Yazılan olmuşam varaq yerinə,
Üzülən olmuşam yarpaq yerinə.
Qazılan olmuşam torpaq yerinə,
Canımda əkirəm ağrılarımı.

Kamandar, o dünən, bax, bu da indi
Boğul dəryalarda, ax, suda indi.
Yüz dəfə başına döy, buda indi,
Boyuma tikirəm ağrılarımı.

## Kimi

Kəpənəkçi - doğma, əziz,
Bir el yoxdu elim kimi.
Dumdurudu aydın, təmiz,
Hansı dil var dilim kimi?

Bu günlərim kaş keçəydi,
Onsuz ömür boş keçəydi,
Hər bir ilim xoş keçəydi,
Orda keçən ilim kimi.

Güvəndiyin ağıl hanı?
Eşitdiyin nağıl hanı?
Ay Kamandar, oğul hanı
Novruz oğlu Alim kimi!

## Mənə nə var

O günlərdən təkcə sənə,
Qalanlardan mənə nə var.
Gül ömrü tək gödək olub,
Solanlardan mənə nə var.

Neyləyim ki, göz allanıb,
Can alışıb, ürək yanıb.
İndi-indi almalanıb,
Dolanlardan mənə nə var.

Günəş gülər çənnən sonra,
Ək, bar götür dənnən, sonra.
Məndən qabaq, sənnən sonra,
Olanlardan mənə nə var.

## Bilmirəm

Gün elə dəyişib, vaxt elə gəlib,
Bitirə bilmirəm bitirdiyimi.
Beş qarış aşağı boydan əyilib,
Götürə bilmirəm götürdüyümü.

Nədən gileylənim, kimə nə deyim
Sinədə zarıyan simə nə deyim?
Sehirdən gözləyim, tilsimə deyim?
Gətirə bilmirəm gətirdiyimi.

Bu ağır, bu əzab bəhərim kimi,
Baxıram axşamım-səhərim kimi.
Ömürdən ayrılan günlərim kimi
İtirə bilmirəm itirdiyimi.

Sayıram, saydığım yadımdan çıxır,
Şəninə uyduğum yadımdan çıxır.
Toplayıb qoyduğum yadımdan çıxır,
Yetirə bilmirəm yetirdiyimi.

Dünən keçirdiyim günlərim baha,
Bir ümid görmürəm indi sabaha.
Qınayan qınasın, Kamandar, daha,
Ötürə bilmirəm ötürdüyümü.

***

Niyə açılmayır səhərimiz bəs?
Pəncərə önündə dayanıb hər kəs.
Kimi qulağında bir səda, bir səs,
Kimi ürəyində duyğular gedir.

Xəyal gəzir haraları gör bu an,
Varmı məni bir anlayıb, bir duyan.
Hüseyn Arif gedən yolu bir zaman,
İndi Süleymanla Kamandar gedir.

## Gedir

Yaz gəlir, isinir torpağın canı,
Əriyir zirvədə bəyaz qar, gedir.
Götürüb qoynuna neçə insanı
Bakıdan Qazağa bir qatar gedir.

Yolboyu hər yerdə banar çiçəyi,
Zərifdi, incədi gülü, ləçəyi.
Sevən, ürəyində gözəl-göyçəyi,
Sevilən, qəlbində arzular gedir.

Ovu bərəsində teyləyən şair,
Dünyayla zarafat eyləyən şair,
Salam, Azərbaycan, söyləyən şair,
Hardadı? Ürəklər intizar gedir.

Bu oba, bu mahal hey çəkib məni,
Eşidən olubmu dağlar deyəni?
Zirvənin üstündən dumanı, çəni,
Dərənin canından ağrılar gedir.

**Kamandan Eyvazlı**